**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№341/1** **04 mart 2022-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında komitələrin və komissiyanın yeni tərkiblərinin təsdiq edilməsi barədə" 2022-ci il 15 fevral tarixli 340/2 nömrəli qərarında dəyişiklik edilməsinə dair**

Auditorlar Palatasının üzvü, "Alfa Audit" QSC-nin auditoru Səfərova Aygün Saday qızı tərəfindən təqdim edilmiş 2022-ci il 03 mart tarixli ərizəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Alfa Audit" QSC-nin auditoru Səfərova Aygün Saday qızı Auditorlar Palatası Şurasının 2022-ci il 15 fevral tarixli 340/2 nömrəli qərarı ilə təsdiq edilmiş Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədri vəzifəsindən azad edilsin.
2. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Əhmədov Qoşqar İlkin oğlu Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin sədr müavini vəzifəsindən çıxarılsın və Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədri vəzifəsinə təyin edilsin.
3. Palatanın üzvü Bayramov İslam Qurban oğlu Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin üzvü vəzifəsindən çıxarılsın və Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədr müavini vəzifəsinə təyin edilsin.
4. Bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**